**Amerika Birləşmiş Ştatları, Nyu-Meksika ştatı,**
**Albuquerque şəhəri, Sacred Sites Research İnc.**
**təşkilatında təcrübəkeçmə haqqında**

# HESABAT

3-29 mart 2014-cü il tarixlərində ABŞ-ın Nyu Meksika ştatının Albuquerque şəhərində, Sacred Sites Research təşkilatında "Qayaüstü təsvirlərin öyrənilməsi metodları" mövzusunda təcrübə keçmişəm.

Tədqiqatın əsas məqsədi Dona Ana qayaüstü incəsənət abidəsində cənub-qərbi ABŞ üçün xarakterik olan Chihuahuan Polychrome Style və Mogollon Red Style stillərinin mövcudluğunu və bu iki stil arasındakı mümkün əlaqəni öyrənmək idi. Ekspedisiyaya rəhbərliyi dünya şöhrətli arxeoloq Lawrence Leondorf edirdi. Bundan başqa ekspedisiyada fotosənədləşdirmə üzrə ixtisaslaşmış arxeoloq Laura White, rəqəmsal, 3D xəritələrin və modellərin tərtibatı üzrə ixtisaslaşmış Mark Willis və yerli arxeoloq Margaret Berrier də iştirak edirdi.

Tədqiqata hazırlıq mərhələsində, 3-8 mart tarixlərində tədqiqatın məqsədi ekspedisiya üzvlərinə izah olundu. Ekspedisiya zamanı istifadə olunacaq metodlar dəqiqləşdirildi. Mövzuya aid elmi ədəbiyyatla tanışlıq oldu. Həmçinin, ərazinin qayaüstü incəsənətinin xarakterik xüsusiyyətləri ilə tanış olmaq üçün Petroglyph National Monument və Three Rivers qayaüstü incəsənət abidələrinə səfərlər edildi.

İkinci mərhələdə, 8-25 mart tarixlərində Dona Ana qayaüstü incəsənət abidəsinin sənədləşdirməsi həyata keçirildi. Ərazidə mövcud olan təsvirli daşlar reqlamentə uyğun olaraq nömrələndi. Bütün təsvirlərin estampı çıxarıldı və bu zaman estamp çıxarmanın müxtəlif metodlarından (sellofan, tor qurma, rəqəmsal metod) istifadə edildi. Piktoqrafların öyrənilməsi zamanı Dstrech proqramından istifadə edildi. GPS vasitəsilə panellərin beynəlxalq koordinant sistemində mövqeyi müəyyənləşdirildi. Təsvirli panellərin və digər arxeoloji abidələrin vəziyyətini və xüsusiyyətlərini əks etdirən blanklar tərtib olundu.

Ərazinin 3D xəritə-modeli hazırlandı. Həmçinin, bəzi panellərin 3D modeli hazırlandı. Radiokarbon analizi vasitəsilə piktoqrafların yaşını müəyyən etmək üçün nümunələr götürüldü.

Dona Ana abidəsinin öyrənilməsi zamanı arxeologiya elmi tarixində ilk dəfə olaraq qayaüstü incəsənətin öyrənilməsində elektron mikroskop tətbiq olundu. Elektron mikroskopun polixrom piktoqraflarda rənglərin mövqeyini müəyyənləşdirmək, petroqliflərdə isə üst-üstə düşmələri öyrənmək üçün istifadəsinin mümkünlüyü müəyyən edildi.

Tədqiqatın son mərhələsində 25-29 mart tarixlərində tədqiqatın nəticələri təhlil olundu. Estampların elektron versiyası yaradıldı. Petroqliflər üzərində riyazi metodların tətbiqi üçün təsvirlər klassifikasiya cədvəlinə uyğun olaraq sinifləndirildi. Pinon Canyon qayaüstü incəsənət abidəsinə səfər edildi.

Tədqiqatın nəticəsində Lawrence Loendorf, Laura White və mənim həmmüəllifliyimlə “Desert tobacco and abstract rock paintings in southern New Mexico, USA” adlı məqalə yazıldı.

**Abdullayev Rəhman**